**“Heç kim heç kimin kitabını oxumadığı” indiki dövrdə oxucuların diqqətini maarifçi irsə çəkən, onun marağına səbəb olan əsərlər çox az-az çap olunur. Bu yaxınlarda işıq üzü görən, tərtibçisi, ön sözün müəllifi və çapa hazırlayanı Tufan İshaq oğlu Axundovun olduğu “Axundzadə Mirzə İsmayıl Qasir” kitabını Azərbaycan maarifçi ədəbiyyatı xəzinəsinə töhfə saymaq mümkündür. Kitab klassik Azərbaycan ədəbiyyatının görkəmli şairlərindən və XIX əsr satirik ədəbiyyatının banilərindən biri hesab edilən Mirzə İsmayıl Qasirin (1805-1900) anadan olmasının 210 illiyinə həsr olunub.**

# Görkəmli maarifçi və şair









Kitabın tərtibçisi Tufan Axundov yazır ki, görkəmli şair Mirzə İsmayıl Qasirin bizə gəlib çatan irsi məhv olma təhlükəsi qarşısında imiş. Sairin nəvəsi İshaq Axundov illərlə qoruyub saxladığı M.Q.Qasirin əlyazmalarını çox böyük çətinliklər bahasına, Böyük Vətən müharibəsinə gedəcəyindən bir gün əvvəl Lənkərandan Bakıya gətirərək Əlyazmalar fonduna təhvil verə bilir.

Maraqlıdır ki, indiyə kimi Mirzə İsmayıl Qasirin həyatı, pedaqoji fəaliyyəti, yaradıcılığı və Azərbaycan ədəbiyyatında tutduğu mövqeyi müəyyən qədər tədqiqatçı alimlər tərəfindən araşdırılıb tədqiq edilsə də, müxtəlif səbəblərdən geniş oxucu kütləsinə tanıdılmamışdır. Tufan Axundov bütün bu səbəblərə aydınlıq gətirməklə kitabda M.S.Qasirlə bağlı bu boşluğu aradan qaldıra bilib.

Tədqiqatçı-alimlər - Aybəniz Rəhimovanın, Tahirə Nurullayevanın və Paşa Kərimovun M.İ.Qasir irsinin öyrənilməsi ilə bağlı çəkdikləri zəhmət də kitabda öz əksini tapmışdır. Belə ki, bu kitab Mirzə İsmayıl Qasirin 1988-ci ildə çap olunmuş “Şeirlər” kitabı əsasında tərtib edilmişdir.

Geniş dünyagörüşə və savada malik bir şəxsiyyət olan Mirzə İsmayıl Qasir üç dildə - Azərbaycan, fars və ərəb dillərində yazıb-yaratmışdır. XIX əsr Azərbaycan ədəbiyyatı ənənələrinə və o dövrün dilinə uyğun olaraq M.İ.Qasirin Azərbaycandilli yaradıcılığında də indiki dövrdə çətin anlaşılan fars və ərəb tərkibli sözlər vardır. Bu kitabda M.İ.Qasirin fars və ərəb dillərində yazdığı şeirlər tərcümə olunaraq oxuculara catdırılmış və azərbaycandilli şeirləri daha asan anlaşılsın deyə oradakı fars və ərəb mənşəli sözlərin lüğəti də verilmişdir.

M.İ.Qasirin həyatı və yaradıcılığını öyrənib düzgün nəticə çıxarmaq üçün onun yaradıcılıq dövrünü daha dərindən araşdırmaq lazımdır. Kitabda oxuyuruq: “Kifayət qədər uzun bir həyat yolu keçmiş Mirzə İsmayıl Qasirin yaradıcılığı XIX əsr Azərbaycan ədəbi-mədəni mühitinin aynası hesab edılə bilər. Onun yaradıcılığında orta əsrlərə məxsus ənənəvi qəzəlçilik, füzuliyana eşq-məhəbbət şeirləri ilə yanaşı, daha qabarıq tərzdə yeni Azərbaycan ədəbiyyatı özünü göstərmişdir. Bunun ortaya çıxmasında isə dövrün ictimai-siyasi və ədəbi-mədəni mühiti xüsusi rol oynamışdır. Ayrıca qeyd etməyinə dəyər ki, XIX əsrin ictimai-siyasi mühiti M.İ.Qasir yaradıcılığına təsir edib onun püxtələşməsinə yol açmışdırsa, Qasir yaradıcılığı da özlüyündə dövrünün ədəbi-mədəni mühitinin yüksəlişinə, satiranın sonrakı inkişafına mühüm töhfə olmuşdur”.

M.İ.Qasirin həyatı, anadan olma tarixi və keçdiyi yaradıcılıq yolu haqqında ədəbiyyatımızda İndiyədək müxtəlif fikirlər mövcuddur. Klassik mütəfəkkirlərin həyatı, yaradıcılığı həmişə böyük maraq doğurduğundan onlar haqqında olan məlumatlar da olduğu kimi yazılmalıdır. Bu hər bir sənətkarın yaradıcılığının daha dəqiq mənalandırılmasında və daha doğru tədqiq olunmasında əsas rollardan birini oynaya bilir. Bu mənada M.İ.Qasirin də həyatı - anadan olma tarixi, doğulduğu yer və keçdiyi yaradıcılıq yolunun müəyyən hissəsi açılmamış qalırdı. Bütün bu məsələlərə kitabda təm dəqiqliklə aydınlıq gətirilməsi, şübhəsiz ki, çox əhəmiyyətlidir.

M.İ.Qasirin bir şair kimi tanınmasında Lənkəran mühitinin böyük rolu olmuşdur. Şair Lənkəranda yaratdığı “Fövcül-füsəha” ədəbi məclisi ilə yaradıcılığının yeni bir mərhələsinə qədəm qoymuşdur. Həmçinin bu ədəbi məclis Lənkəranda yazıb-yaradan bir çox şairlərin yetişməsinə və yeni bir ədəbi mühitin formalaşmasına böyük təsir göstərmişdir.

Kitabda yazılır: “Ədəbi məclis hərəkatının başlanğıcı böyük mütəfəkkir-pedaqoq Mirzə Şəfi Vazeh tərəfindən 1820-ci ildə Gəncədə qoyulmuşdu. Onun yaratdığı, sonralar Tiflisdə fəaliyyətini davam etdirdiyi “Divani-hikmət” məclisi 1852-ci ilədək yaşamış və digər məclislərin ortaya çıxmasında əsas rol oynamışdı. A.Bakıxanovun 1825-ci ildə Qubada yaratdığı “Gülüstan” məclisi əsrin sonuna qədər işini davam etdirmişdi. 30-cu illərdə Ordubadda Şıxəli Naibin başçılığı ilə daha bir “Əncümanüş-şüarə” məclisi yaradılmışdı. Nəhayət, Mirzə İsmayıl Qasir Lənkəranda yaşayarkən buradakı şairləri başına toplayaraq, məclis hərəkatının bu bölgəyə gəlib çıxmasına nail olmuş, “Fövcül-füsəha” ədəbi məclisini yaratmışdı. “Fövcül-füsəha”nın sonralar Şamaxıda və Bakıda “Beytüs-səfa” (1867) və “Məcməüş-şüara” (1880) məclislərinin yaradılmasına müsbət təsiri olmuşdur. Belə ki, həmin məclis üzvləri Lənkəran məclisi ilə tez-tez əlaqə saxlayır, onun üzvləri ilə mənzum məktublaşırdılar. Hətta Qasirin “Məcməüş-şüara”nın məclislərinə dəvət olunduğu da məlumdur. Əsrin 60-70-ci illərində Şuşada Mirzə Rəhim Fəna və Mir Mövsüm Nəvvab tərəfindən əsası qoyulan “Məclisi-üns” və “Məclisi-fəramuşan”ın da XIX əsr Azərbaycan ədəbi-mədəni mühitinin yeniləşməsində, ədəbiyyatın müasirləşməsində xüsusi rolu olmuşdur”.

M.İ.Qasirin çox maraqlı və zəngin pedaqoji fəaliyyəti olmuşdur. İndiyədək tədqiqatçılar şairin pedaqoji fəaliyyətinin yalnız Lənkəran dövrünü tədqiq etmişlər. Əslində isə M.İ.Qasir Təbrizdə, İsfahanda, Şirvanda və Bakıda da müəllimlik etmişdir. O, dərs dediyi məktəblərdə həmişə yeniliyin və müasirliyin tərəfdarı olmuş, şagirdlərini də bu ruhda tərbiyə etməyə çalışmışdır. Valideynlərin uşaqlarını oxutmaq istəmədiyi bir dövrdə onun Lənkəranda yaratdığı məktəbdə şagirdlərin sayı da həmişə çox olmuşdur. Bir şeirində M.İ.Qasir yazır:

*Burada gözəl məktəb açdım, tez yığıldı başıma,*
*Elmin əlli pərvanəsi - oxumağa can atan.*

Ədibin irsini tədqiq edənlər onun pedaqoji fəaliyyətinə çox yüksək qiymət vermişlər. Bəzi tədqiqatçılar onu Lənkəranda yeni məktəblərin ilk yaradıcısı hesab edir. Tanınmış alim Mirhaşım Talışlı yazır: “Qasirin yaratdığı məktəb öz tədris üsuluna görə Seyid Əzim Şirvaninin Şamaxıda açdığı məktəbə çox oxşayır. Burada dünyəvi elmlər də tədris olunurdu. Azərbaycanda xalq maarifinin inkişafında və pedaqoji tariximizdə S.Ə.Şirvani hansı mövqedədirsə, cəsarətlə demək olar ki, M.İ.Qasir də bir maarif xadimi kimi ondan geri qalmır”.

M.İ.Qasirin zəngin yaradıcılığı vardır. Şair bütün həyatı boyu çox məhsuldar çalışaraq Azərbaycan ədəbiyyatına zəngin bir irs qoyub getmişdir. Onun yaradıcılıq xüsusiyyətlərini izləyərkən ilk növbədə, sairin satirik və lirik qəhrəmanlarından danışmaq lazım gəlir. Məhz şairin şeirlərinə nəzər yetirəndə onun özünəməxsus dil və üslub xüsusiyyətləri daha qabarıq üzə çıxır.

Kitabda oxuyuruq: “Mirzə İsmayıl Qasir anadilli ədəbiyyatımızın inkişafında özünəməxsus mühüm xidmətləri olan şairdir. Azərbaycan dilində qələmə aldığı şeirlərinin çoxluğu, bir tərəfdən, onun vətənpərvərlik mövqeyi ilə bağlıdırsa, ikinci tərəfdən, bu, Qasirin anadilli şeirimizin yenidən qurulması, ana dilimizin müqəddaratının ön plana çəkilməsi istəklərini əks etdirir”.

M.İ.Qasir öz yaradıcılığında insanı düşündürən bütün mövzulara




toxunmağa çalışmışdır. Onun şeirləri həyatını və XIX əsrin hadisələrini yenidən oxucuların gözü qarşısında canlandırmaq gücünə malikdir. Şair “Şərhi-hal” şeirində yazır:

*Səlim oğlu İsmayılam, Dövlətxanın nəsliyəm,*
*Mənşəyim Gilanzəmin, ana yurdum da Şirvan.*

M.İ.Qasir nümunəvi, fəxr ediləcəyi bir ailənin başçısı olmuşdur. Şair iki oğul böyüdüb boya-başa çatdırmışdır. Oğlanlarından biri, böyük oğlu - Hacı Səlim Axund Axundzadə Azərbaycan Xalq Cümhuriyyətinin yaradıcılarından, ölkəmizin müstəqillik bəyannaməsinə imza atanlardan, Zəngəzur mahalını daşnak ordusundan azad edənlərdən və Milli Parlamentdə bu mahalı təmsil edənlərdən biri olmuşdur. Bütün bunlar haqqında daha dəqiq, daha ətraflı bu kitabda oxumaq mümkündür.

Şübhəsiz ki, Azərbaycan ədəbiyyatının klassik sairi - M.İ.Qasirin həyat və yaradıcılığı ilə oxucular T.Axundovun tərtib etdiyi “Axundzadə Mirzə İsmayıl Qasir” kitabında daha yaxından tanış ola biləcəklər.

Tanınmış Azərbaycan ədəbiyyatçısı Əzizağa Məmmədov Mirzə İsmayıl Qasir yaradıcılığından bəhs edərək yazır: “...Bütün XIX əsr boyu yaşamış Qasir ədəbiyyat tariximiz üçün tədqiq olunmağa layiq bir sənətkardır”.

Zaman keçdikcə, maarifçi irsimizin aktuallığı daha da artır. Doğrudan da, M.İ.Qasir həyatının, yaradıcılığının və pedaqoji fəaliyyətinin araşdırılıb kitab halında çap olunub geniş oxucu kütləsinin ixtiyarına verilməsi çox böyük hadisə sayılmalıdır. Bu hadisənin reallaşdırılmasında əvəzsiz xidmətlər göstərmiş tanınmış alim Tufan Axundova ancaq minnətdarlıq düşür.

**Mikayıl Əkbərov**
**AMEA-nın Fəlsəfə və Hüquq İnstitutunun elmi işçisi**